UOT 101.1

**Müslüm NƏZƏROV**
*pedaqogika ü.f.d., dosent, ADPU*

# POSTQEYRİ-KLASSİK DÖVR VƏ TƏHSİL İDEYALARI*

Təhsilin anlamı problemini əbədi problemlər sırasına aid etmək olar. Bu gün də bu problem öz aktuallığını saxlayır. Bu, birinci növbədə, sosiomədəni hadisə olan təhsilin mürəkkəbliliyi və çoxşaxəli öyrənilməsi zamanı hər an yeni şaxələri və xassələri aşkarlamaq perspektivinin olması və deməli, onun yeni şərhinin meydana gələ bilməsi ilə bağlıdır. XX əsr fəlsəfəsində yaranmış ümumi metodoloji hərəkat, yəni klassik mərhələdən qeyri-klassik, ondan da postqeyri-klassik mərhələyə keçid şəraitində təhsil sahəsində bilikləri genişləndirmək və dərinləşdirmək imkanları xüsusilə artır.

Bildiyimiz kimi, postqeyri-klassik mərhələnin səciyyəvi cəhətlərinə aşağıdakılar aid edilir:

- maarifçiliyin rasionalistcəsinə tənqid və islahatlar yolu ilə tərəqqisinə nail olmanın mümkünlüyü haqqında təsəvvürlərin rədd eidlməsi;
- sosial reallığın izahında sərt determinizm konsepsiyalarından imtina edilməsi;
- sosial reallığın mürəkkəbliyi üzündən müxtəlif tədqiqatçılıq paradiqmalarının bir-birini inkar etməyib, əksinə, bir-birini tamamlamalı olduğu haqqında fikirlərin qərarlaşması;
- sosial hadisələri öyrənərkən aksioloji metoda istinad edilməsi, kazual və aksioloji yanaşmaların vəhdətinin təmin edilməsi zərurətinin etiraf edilməsi.

Deyilənlərdən aydın olur ki, postqeyri-klassik mərhələ üçün metodoloji plüralizm səciyyəvidir. Bu gün metodoloji plüralizmi sosial elmlərin magistral inkişaf istiqaməti kimi nəzərdən keçirmək olar. Zənnimizcə, təhsilin real və ardıcıl şəkildə yeniləşdirilməsi haqqında yalnız bu çərçivədə danışmaq mümkündür.

Təhsil sistemlərinin, o cümlədən Şərq ölkələrinin təhsil sistemlərinin hərtərəfli sosiomədəni təhlili göstərir ki, Avropa təhsil sistemindən fərqli təhsil sistemləri (məsələn, Asiya ölkələrinin təhsil sistemləri) də öz səmərəliliyini nümayiş etdirir. Sual olunur: Qərb təhsili ilə Şərq təhsilini necə qiymətləndirməli? Bu qiymətləndirmənin meyarları nədən ibarət olmalıdır?

Bu sualların cavablandırılması təhsilin sosiomədəni təhlilinə müraciət etməyimizi tələb edir. Bu onunla şərtlənir ki, müasir postindustrial cəmiyyətdə biliyin rolunun artmasına baxmayaraq, təhsilin ictimai fikirdə və praktiki məsələlərin həllində nüfuzu düşməkdədir. Təhsilin tədricən mərkəzdən periferiyaya keçməsi təhsilin məzmunu, onun müxtəlif sosiomədəni sistemlərdə yaşayan insanların təhsil haqqında təsəvvürlərinə nə dərəcədə uyğun olması barədə suallar doğurur. Zənnimizcə, sadalanan bu problemlərin təhlilini sosiomədəni yanaşmadan kənarda aparmaq mümkünsüzdür.

Təhsil problemlərinə fəlsəfi marağın artması həmçinin müasir cəmiyyətin keyfiy-yətcə yeni duruma keçməsi ilə şərtlənir ki, bu da təhsilin fərqli parametrlərinin üzə çıxarılmasını nəzərdə tutur və müasir reallıqlara adekvat olan təhsil anlamını tapmaq zərurətini şərtləndirir. Sosiomədəni aləmin bütün rəngarəngliyini əhatə edə bilmək üçün sosiomədəni yanaşmanın imkanlarından tam həcmdə istifadə edilməlidir.

Müasir mürəkkəb və ziddiyyətlərlə dolu dünyada təhsilə sosiomədəni yanaşmanın tətbiqi həm də ona görə aktualdır ki, müasir sosial praktikanın geniş hadisələr diapazonu, o cümlədən informasiyalaşdırma, kompüterləşdirmə və s. təhsilə öz təsirini göstərir. Təhsilin informasiya

---

* Məqalə fəlsəfə ü.f.d., dosent Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

cəmiyyətində təyini nədədir? Yeni dünya təhsilə necə təsir göstərə bilər? Təhsilin bu dəyişikliklərə potensial "cavabı" nədən ibarət ola bilər? Onun yaranmış qlobal və lokal problemlərin həllində imkanları nə dərəcədədir? Bu kimi məsələlər yaşadığımız postindustrial cəmiyyətdə nəzəri-metodolojidən çox, praktiki xarakter alır.

Bu və bu kimi digər məsələlər təhsili sistemli və kompleks şəkildə öyrənmək məqsədilə fəlsəfi, sosiomədəni və nəzəri bilikləri sintez halına gətirmək zərurətini meydana gətirir.

Beləliklə, müasir təhsildə cərəyan edən dəyişiklikləri araşdırarkən tədqiqatçıların üzləşdiyi nəzəri-metodoloji çətinliklər təhsilin mahiyyətini dərk etmək üçün fəlsəfi və sosiomədəni bilikləri cəlb etmək, təhsilin sosiomədəni konsepsiyasını yaratmaq zərurətinə işarə edir.

Təhsil və tərbiyənin mahiyyətinin araşdırılmasının kökləri qədim dövrlərə gedib çıxsa da, təhsilə sosiomədəni yanaşma yalnız XVIII əsrdə K.A.Helvetsinin "İnsan, onun əqli qabiliyyətləri və tərbiyəsi haqqında" (3) və İ.Kantın "Antropologiya" adlı əsərlərində qeydə alınmışdır (4). Bu əsərlərdə nəzərdən keçirdiyimiz problemin müxtəlif aspektlərinə toxunulsa da, təhsil bir sosiomədəni fenomen kimi hələ tədqiqat obyekti olmamışdır. Müasir şəraitdə təhsilə kompleks fəlsəfi, sosiomədəni yanaşma bu mürəkkəb və çoxşaxəli problemin konseptuallaşdırılması üçün təməl yarada bilər.

Qeyd edildiyi kimi, təhsil çoxşaxəli və mürəkkəb bir hadisədir. Hər bir insan öz həyatında bu hadisə ilə üzləşir və onun haqqında öz təsəvvürlərini yaratmaqla, bu təsəvvürləri öz davranışının əsasına qoyur. Xüsusən də təhsil işçiləri, təhsil məsələləri ilə peşə səviyyəsində məşğul olan şəxslər "təhsil" anlayşını özləri üçün müəyyənləşdirməlidirlər. Amma paradoks da olsa, bu gün nə ölkəmizin, nə də xarici ölkələrin elmində təhsil haqqında vahid təsəvvür formalaşmamışdır.Təbii ki, bu hadisənin çoxşaxəliliyini nəzərə alaraq, onun haqqında vahid təsəvvürlər formalaşdırmaq, təhsilin universal tərifini vermək mümkün deyil. Lakin "təhsil" anlayışına yanaşmaları müəyyənləşdirmək olar və lazımdır.

Problemi araşdırarkən ilk növbədə müasir dünyada təhsilə təsir göstərən proseslər hərtərəfli öyrənilməlidir. Təhsilin müasir inkişaf tendensiyalarını araşdırmağa başlamazdan öncə bir məsələni dəqiqləşdirmək istərdik. Biz bu tezisdən çıxış edirik ki, təhsil-təhsil ideyaları sistemidir və sonrakı mülahizələrimizi də bu tezisin üzərində quracağıq.

İnformasiya cəmiyyətinin məzmununu təhlil edərkən, təhsilin təkamülündə ən əhəmiyyətli tendensiya kimi, təhsilin bəşəriyyətin həyatında rolunun artdığını qeyd edən alimlərin fikirləri ilə razılaşmalı oluruq. Bununla belə, təhsilin inkişaf tendensiyalarının hərtərəfli təhlili qeyd etdiyimiz tendensiyanın əksi olan tendensiyanı ortaya çıxarmaq imkanı verdi. Bu tendensiyanı təhsilin nüfuzunun düşməsi kimi səciyyələndirmək olar. Biz bunu «təhsilin draması»da adlandırardıq.

Müasir təhsilin əsas inkişaf tendensiyalarının kompleks şəkildə araşdırılması bizə belə bir fikir söyləməyə əsas verir ki, təhsil və onun insanın həyatında aliliyi haqqında yüksək təsəvvürlər, sadəcə, romantikanın təzahürlərindəndir.

Təhsilin dramasının digər təzahürlərinə də nəzər salaq. Burada ilk növbədə onu nəzərə almaq lazımdır ki, müasir dünya ayrı-ayrı dövlətlərin təhsil sistemlərində öz əksini tapan qloballaşma və informasiya cəmiyyəti dövrüdür. Belə ki, qloballaşma nəticəsində dünya müxtəlif, o cümlədən bir-birinə zidd olan texniki və psixoloji qüvvələrin (informasiya axınları, kompyuterləşmə, İnternet və s.) təzyiqinə məruz qalır ki, bu da onun ənənəvi dayaqlarını sarsıdır. Özünümüdafiə üçün müasir dünya əlavə mexanizmlər yaradır,qanunlar qəbul edir ki, bu da informasiyanın kəskin dərəcədə artmasına gətirib çıxarır. İnformasiyanın kəmiyyətcə artması yeni-yeni təhsil sahələrinin (təhsil menecmenti, təhsil iqtisadiyyatı və s.) meydana gəlməsi ilə müşayiət olunur ki, bu da öz növbəsində ixtisaslaşmanın dərinləşməsinə səbəb olur. Dünyanın vahid və bütöv mənzərəsi ayrı-ayrı mozaik mənzərələrlə əvəz olunur, bu da zəruri olaraq müasir insanın şüur və mədəniyyətinin mozaikliyinə gətirib çıxarır.

Bunun neqativ nəticələrini dərk edən dünya birliyi informasiya massivini informasiyanı kompyuterləşdirməklə nizama salmağa çalışır. Lakin praktika göstərir ki, bu, təhsilin adi informasiya axını səviyyəsinə endirilməsi yolu ilə reallaşdırılır. İnformasiya formal əlamətlərə, açar sözlərə görə təsnif edilir. Bu isə o deməkdir ki, bilik obyektinə mexaniki, dəyərdənkənar yanaşma həyata keçirilir. Belə olduqda, kompyuterləşdirmə nəticəsində əldə edilən informasiya müəyyən məna daşıyan mühakimədən çox riyazi məntiq qanunları üzrə aparılan axtarış əməliyyatına bənzəyəcəkdir.

Zənnimizcə, müasir təhsilin əsas paradokslarından biri bundan ibarətdir: informasiya massivi nə qədər çox olsa, onun emalı vasitələri nə qədər çox olsa, mədəni hadisə olan təhsil də bir o qədər az olacaqdır. Nəticədə intellektual qabiliyyəti rəqəm-işarə rəmzləri çərçivəsi ilə məhdudlaşan, mənəvi-yaradıcı potensialı zəif olan yeni, numerik bir insan meydana gəlməkdədir. Bunun da qaçılmaz nəticəsi, sosioloq və antropoloqların vurğuladığı kimi, müasir insanın düşüncə səviyyəsinin kəskin dərəcədə aşağı düşməsidir.

Müasir təhsilin inkişaf tendensiyalarından biri də qloballaşmış dünyada təhsil sistemlərinin unifikasiyası, standartlaşdırılmasıdır. Milli təhsilə getdikcə diqqət azalır. Bu isə o deməkdir ki, təhsil nəzəriyyəçiləri və praktiklərinin iradəsi ilə təhsil insan zəkasının "ali" nailiyyətlərinin təcəssümü olan, lakin ayrı-ayrı xalqların mədəni-tarixi inkişaf prosesini nəzərə almayan universal sxemlər axtarışına "çıxmışdır". S.Xəlilov haqlı olaraq yazır: "Təhsil... beynəlmiləlləşə-beynəlmiləlləşə, milli ictimai gerçəkliyin konkret məzmunundan uzaqlaşa-uzaqlaşa... öz məxsusi məzmununu, problematikasını və guya zaman və məkandan asılı olmayan, konkret ictimai mühitdən asılı olmayan hansısa ali məqsədini formalaşdırır" (1, s.33). Halbuki hamıya bəllidir ki, istənilən yadmədəni mənşəli nəzəri konstruksiyaya tənqidi yanaşılmalıdır. Burada "universal olan hər şey həmişə simasızdır" (5, s.407) deyə, xəbərdarlıq edən S.Kyerkeqorla razılaşmamaq olmur.Təhsildə bu, xüsusilə yolverilməzdir, çünki təhsil prosesində simasız deyil, konkret insanlar iştirak edir. Bu kontekstdə bir şeyi də qeyd etmək istərdik. Sözsüz ki, bir-birinə yaxın mədəni-tarixi kökləri olan ölkələrdə standartlaşdırma prosesi uğurlu ola bilər, lakin bir-birindən köklü şəkildə fərqlənən sosiomədəni şəraitdə aparılan unifikasiya xalqın öz təhsil sistemindən imtina edib, mütləq təhsil ideyalarının təsdiqlənməsini nəzərdə tutur ki, bu da təhsil sisteminə heç də yaxşı təsir göstərməz. Bir cəmiyyətdə öz səmərəliliyini sübut etmiş hər hansı sistem başqa cəmiyyətdə faciəyə səbəb ola bilər. Zənnimizcə, təhsilin dramasının biri də bundan ibarətdir.

Təhsilin dramasının təzahürlərindən biri də təhsil sahəsində biliklərin konseptuallaşdırılması probleminin hələ də qalmasıdır. Təhsil problemləri filosoflar tərəfindən unudulmuşdur: bunlar təhsil işçilərinin ixtiyarına buraxılmışdır. Nəticədə müasir təhsil sistemlərində açıq-aşkar təhsilin əzəli ideyası, təbiəti, idealları, dəyərləri ilə uzlaşmayan birtərəfli formalar müşahidə olunur. S.Xəlilovun qeyd etdiyi kimi, "təhsil ideyası, onun mahiyyəti, məqsədi və makrostrukturu sahəsində mütəxəssislər... yox dərəcəsindədir". S.Xəlilov bunun məşhur pedaqoqlar (o cümlədən, F.Paulsen, V.V.Krayevski, P.S.Qureviç) tərəfindən də etiraf olunduğunu qeyd edir (1, s.34) Təhsil, xüsusən də pedaqoji təhsil sistemində təhsil fəlsəfəsi, təhsil sosiologiyası, müqayisəli təhsilşünaslıq kimi fənlərin olmaması ona gətirib çıxardı ki, təhsil fəlsəfəsi üçün ənənəvi olan metodoloji və qismən də proqnostik funksiyanı hazırda sahəvi elmlər yerinə yetirir. Nəticədə təhsilşünaslıq həyatdan ayrı düşmüşdür.

Təhsilə sosiomədəni yanaşmanın doğruluğunu sübut edən həm də postklassisizm dövrü ədəbiyyatında iddia edildiyi kimi, sosial və mədəni dəyişikliklər arasında fərqlərin mövcudluğudur. Belə ki, sosial olan "insanların bir-birinə təsir göstərdikləri münasibətləri" ifadə edir. O, insanlar arasında qarşılıqlı münasibətlərin üsul və formalarını – sosial münasibətləri, strukturları və onların inkişaf proseslərini xarakterizə edir. Mədəni olan isə "bu qanunauyğunluqların qeydə alına bilən dəyərləri, qiymətləndirilmələri və standartları növündə

hər hansı nəticələrini" (5, s.302) ifadə edir. Başqa sözlə, mədəni olan bu qarşılıqlı münasibətlərin nəticələrini – insanlar tərəfindən formalaşdırılan və dəstəklənən, habelə onların qarşılıqlı münasibətlərində vasitəçilik edən dəyərləri, maraqları əhatə edir. Belə olduqda, sosial və mədəni dəyişiklikləri forma (insanların qarşılıqlı təsirləri) və məzmunun (maraqlar, məqsədlər, dəyərlər, ideyalar) nisbəti kimi təsəvvür etmək olar. Bu o deməkdir ki, təhsilin inkişaf yollarını, təhsil islahatlarını müəyyənləşdirərkən təkcə cəmiyyətdə baş verən sosial dəyişikliklərdən deyil, həm də bu cəmiyyətin mədəniyyətinin məzmunundan və onda baş verən dəyişikliklərdən çıxış edilməlidir.

XXI əsrin təhsil modeli təlim və tərbiyənin əsas ideyalarının, məqsədlərinin, prinsip və metodlarının tam sistemidir. Cəmiyyətin inkişafı prosesində o, müntəzəm surətdə dəqiqləşir və yeniləşir. Sivilizasiyalı inkişafdan geri qalmaq istəməyən heç bir ölkənin öz təhsil sistemini beynəlxalq təhsil ideallarının formalaşması tələblərindən kənarda modelləşdirməsi mümkün deyildir.

İstənilən cəmiyyətin mədəniyyətinin səviyyəsi və həyat fəaliyyətinin sosial xarakteri onun təhsilinin səviyyəsindən asılıdır. Ümumi planda götürəndə təhsil dünyanı dərk etmənin və anlamanın, həmçinin cəmiyyətin həyatında professional ustalığa yiyələnmənin forma və vasitələridir (7, s.123).

Mühakimələrimiz belə bir nəticəyə gəlməyə əsas verir ki, təhsilin ideyasının cəmiyyətin sosial-psixoloji və mədəni-tarixi dayaqlarına uyğun gəlməli olduğunu iddia edən alimlər haqlıdırlar. Lakin təhsilin sosiomədəni şərtləndiyini iddia edən alimlər çox vaxt buna necə nail olmalı məsələsini açıq saxlayır. Mülahizələrində onlar təhsilin ideya və məzmunu məsələsinə toxunmurlar. Bir çıxış yolu qalır ki, bu da təhsilin formal anlamı çərçivələrindən kənara çıxıb fəlsəfi, mədəni-antropoloji, sosial-psixoloji metodları cəlb etməklə təhsili sosiomədəni fenomen kimi nəzərdən keçirmək və beləliklə də, təhsilin cəmiyyətin mənəvi mədəniyyəti ilə əlaqəsini bərpa etməklə onu dirçəltməkdir. Yalnız müxtəlif metodları inteqrasiya etməklə təhsil kimi mürəkkəb bir fenomenin dərinliklərinə varmaq olar. Düşünürük ki, təhsili ruhsuzlaşmadan yalnız fəlsəfə, antropologiya, mədəniyyətşünaslıq, etika xilas edə bilər.

**Açar sözlər:** *təhsil, qloballaşma, informasiya cəmiyyəti, fəlsəfə, təhsil fəlsəfəsi.*

## İstifadə olunmuş ədəbiyyat

1. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2005, 650s.
2. Архипова О.В. Идея образования в контексте постнеклассической культуры. Дисс…. докт. филос. наук. СПб., 2011.
3. Гельвеций К.А. О человеке, его умственных способностях и его воспитании. М., 1938.
4. Кант И. Сочинения. В 6 тт., т.2. М., 1964.
5. Современная западная теоретическая социология: Реферативный сборник, вып.3. М., 1995.
6. Kierkegaard S. Tagebücher. München, 1953.
7. Nəzərov M.H, Babayeva A.R. Mədəniyyət və təhsilin ümumi əsasları. (Dərs vəsaiti). Bakı, 2016, 200 s.

**Муслим НАЗАРОВ**

## ПОСТНЕКЛАССИЧЕСКАЯ ЭПОХА И ИДЕИ ОБРАЗОВАНИЯ

**Резюме**

Исходя из понимания образования как системы его идей, анализируются современные тенденции развития образования, а также факторы, влияющие на него. На этой основе рассматриваются актуальные проблемы, с которыми сталкивается образование. В качестве их причины указывается разрыв образования и философии. Как выход из ситуации обосновывается необходимость выйти за рамки формального понимания образования и рассматривать его как социокультурный феномен с привлечением культурно-антропологических, социально-психологических методов а также восстановления связи образования с духовной культурой общества.

**Ключевые слова:** *образование, глобализация, информационное общество, философия, философия образования.*

**Muslim NAZAROV**

## POST-NON-CLASSICAL EPOCH AND THE IDEA OF EDUCATION

**Summary**

Proceeding from understanding education as a system of ideas of education there are analyzed modern tendencies of development of education, the factors affecting it, and on this basis - the current problems facing education are discussed. As their reason stated for the gap of education and philosophy, and as a way out of the situation, the necessity to go beyond a formal understanding of education and considering it as a socio-cultural phenomenon involving cultural-anthropological, socio-psychological methods and the reconnection of education with the spiritual culture of the society.

**Keywords:** *education, globalization, information society, philosophy, philosophy of education.*